Təsdiq edirəm:

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri

________________ Qorxmaz Hüseynov

**"Əhali qrupu üzrə istehlakçılara su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair son 12 ay üzrə faktura və ödəniş məlumatlarının verilməsi" xidməti üzrə inzibati reqlament**

## 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** "Əhali qrupu üzrə istehlakçılara su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair son 12 ay üzrə faktura və ödəniş məlumatlarının verilməsi"

1.2. **Elektron xidmətin məzmunu:** Bu xidmət vasitəsilə əhali qrupu üzrə istehlakçılar real vaxt rejimində şəxsi məlumatları barədə informasiya əldə edə bilərlər.

**1.3.Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**

"Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 fevral tarixli 813 nömrəli Fərmanı, ""Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının siyahısı"nın və "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün texniki tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 01.05.2014 tarixli 118 nömrəli Qərarı;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları", həmin qaydalara 1 nömrəli əlavə;

"Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanı;

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 11 may tarixli "Fərdi məlumatlar haqqında" qanunun 7.1.3-cü və 12.1 bəndləri.

1.4. **Elektron xidməti göstərən dövlət qurumunun adı:**"Azərsu" Açıq Səhmdar Cəmiyyəti

1.5. **Elektron xidmətin digər icraçıları:** Bu xidmətin icrası yalnız "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən həyata keçirilir.

1.6. **Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** Bu sahədə göstərilən xidmət tam avtomatlaşdırılmışdır.

B.F

1.7. **Elektron xidmətin icra müddəti:** Xidmət real vaxt rejimində icra olunur.

1.8. **Elektron xidmətin göstərilməsinin nəticəsi:** Əhali qrupu üzrə istehlakçılar real vaxt rejimində abonent koduna görə son 12 ay üzrə ödəniş və faktura məlumatlarına baxış imkanı əldə edir.

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

2.1. **Elektron xidmətin növü:** İnformativ xidmət

2.2. **Elektron xidmət üzrə ödəniş:** Ödənişsiz

2.3. **Elektron xidmətin istifadəçiləri:** Əhali qrupu üzrə istehlakçılar

2.4. **Elektron xidmətin təqdim olunma yeri:**

http://www.azersu.az;
https://www.e-gov.az

2.5. **Elektron xidmət barədə məlumatlandırma:**

http://www.azersu.az
e-mail: office@azersu.az
Tel: (012) 431 47 67, 431 47 87
Xidmət prosesində yaranan hər hansı bir anlaşılmazlığın aradan qaldırılması, həmçinin metodiki dəstəyin göstərilməsi məqsədilə Cəmiyyətin "qaynar xətt" xidmətinə (955) müraciət edilə bilər.

2.6. **Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:** Elektron xidmətin göstərilməsi üçün sənəd tələb olunmur.

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

3.1. Elektron xidmətlər istifadəçilər üçün daim açıqdır və müraciət edilməsi hər hansı qaydada məhdudlaşdırıla bilməz.

3.2. **İnteraktiv elektron xidmətlər üçün sorğu:**

3.2.1. **Sorğunun formalaşdırılması:** İstifadəçi, ona təqdim olunan elektron ünvanda açılan ekranda "Əhali qrupu üzrə istehlakçılara su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair son 12 ay üzrə faktura və ödəniş məlumatlarının verilməsi" elektron xidmətini seçərək Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən verilmiş "Elektron imza" kartı, Asan imza və ya "Elektron Hökumət" sistemi tərəfindən verilmiş istifadəçi adı və şifrə ilə autentifikasiyadan keçdikdən sonra xidmətdən istifadə edə bilər.

Müraciət edən şəxs abonent kodunu sistemə daxil edildikdən sonra şəxsi məlumatlarına baxış imkanı əldə edir (1 nömrəli əlavə).

Б.F

3.2.2. **Sorğunun qəbulu:** Sorğu real vaxt rejimində icra olunur.

3.3. **Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

3.3.1. **Sorğunun yerinə yetirilməsindən imtina halları:** Verilənlər bazası ilə şəbəkə əlaqəsi kəsildikdə və ya məlumat mərkəzlərində aparılan profilaktik tədbirlər həyata keçrildikdə elektron xidmətin göstərilməsində müvəqqəti fasilələr yarana bilər.

www.e-gov.az portalında qeydiyyatdan keçməmiş şəxs xidmətdən istifadə edə bilməz.

3.3.2.**Sorğunun qəbulu:** 3.3.1-ci bənddə sadalanan hallar istisna olmaqla elektron xidmətin fasiləsizliyi təmin edilir.

3.4. **Sorğunun icrası:** Sorğu qəbul edildikdən sonra istehlakçı real vaxt rejimində daxil edilən abonent koduna uyğun şəxsi məlumatlarına baxış imkanı əldə edir. İstehlakçıya aşağıdakı şəxsi məlumatları təqdim olunur:

- Abonentin adı,soyadı,ata adı;
- Abonentin yaşayış ünvanı;
- Xidmət göstərilən nəfər sayı;
- Göstərilən xidmətin növü (Su təchizatı və/və ya tullantı sularının axıdılması xidməti);
- Abonentin sayğacının tipi;
- Hesabat ili və ayı;
- Son 12 ay üzrə faktura sərfiyyatı;
- Son 12 ay üzrə faktura məbləği;
- Son 12 ay üzrə ödənilmiş məbləğ.

3.5. **Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:** Xidmətin yerinə yetirilməsinə nəzarət İnformasiya və Kommunikasiya Texnologiyaları Departamenti tərəfindən həyata keçirilir.

3.6. **Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:**

İstifadəçilərin bu elektron xidmətin göstərilməsi üzrə yaranan mübahisələrlə bağlı qanunvericiliyə uyğun olaraq şikayət vermək hüquqları vardır.

B. F

**“Əhali qrupu üzrə istehlakçılara su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair son 12 ay üzrə faktura və ödəniş məlumatlarının verilməsi xidməti üzrə inzibati reqlament”ə**

**1 nömrəli əlavə**

Sənədin nömrəsi:
Verilmə tarixi:

**Azərbaycan Respublikası “Azərsu” Açıq Səhmdar Cəmiyyəti**
**“Əhali qrupu üzrə istehlakçılara su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair son 12 ay üzrə faktura və ödəniş məlumatlarının verilməsi” haqqında**

**ELEKTRON ARAYIŞ**

| | |
|---|---|
| Abonent kodu: | |
| Adı, soyadı, ata adı: | |
| Yaşayış ünvanı: | |
| Xidmət göstərilən nəfər sayı: | |
| Göstərilən xidmətin növü: | |
| Sayğac tipi: | |

| Hesabat ili | Hesabat Ayı | Faktura sərfiyyatı ($m^3$) | Faktura məbləği (AZN) | Ödənilmiş məbləğ (AZN) |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| **Yekun (cəmi):** | | | | |